# QARA EYNƏKLİ QADIN



*Zakir Bağır*

**(əvvəli ötən saylarımızda)**

**Povest**

Ayıq vaxtı qara eynəkli qadın heçnə boynuna almazdı. Sərxoş olanda sonra isə açardı sandığı, tökərdi pambığı.

Qara eynəkli qadın birinci badəni içdi. Əbilinin verdiyi skaladı da ağzına atdı. İştahla yeməyə başladı. Sonra ikinci badəni içdi. İridi qara eynəkli qadın hiss etdi ki, başı fırlanır. Huşu özündə deyil.

Əbiliyə də bu lazım idi.

-Ərin haçan avariyaya düşüb?

-Ərim? Ərim var ki, avariyaya düşsün?

-Bəs uşaq kimdəndir?

-Dostunuz sizə deməyib? Əlibacıdandır...

-Allah eləməsin mənim belə dostum olsun.

"Deməк, Əlibacı məni aldadıb. Heç eybi yoxdur ay Əlibacı sənin başına elə oyun açdırım ki... Haçan boynunun arxasını görsən təzə kostyumu və köynəyi də onda görərsən. Bu necə olub onun toruna düşüb? Amma Əbili ürəyindən keçən bu sualı qara eynəkli qadına vermədi.

Qara eynəkli qadın iştahla yeyirdi. Yeməkdən sonra Əbili divan - çarpayını açdı. Üstündə balış ağ parça sərdi.

-Bilirsəndə abort etmək həkimçün qorxuludur. Gərək yüz yerə hesabat verəsən. Xəstədən filan-filan sənəd alasan. Hələ zəhmət haqqım demirəm. Amma mən səndən nə sənəd, nə də pul istəyirəm. Bütün məsuliyyəti öz üzərimə götürürəm.Amma bir şərtim var.

Qara eynəkli qadın hiss etdi ki, Əbilinin şərti nədən ibarətdir. Amma özünü bilməzliyə qoydu.

-Nə şərtdir belə doktor?

Əbili gülümsədi.

-Gərək istədiyim vaxtda mənimlə görüşəsən.

Bu müddət ərzində qara eynəkli qadın Əlibacı haqqında çox şey öyrənmişdi. Çox yaxşı bilirdi ki, Əlibacı onu alan deyil.

-Yaxşı.

Elə bil Əbiliyə dünyanı bağışladılar. O qara eynəkli qadının tezliklə razılaşacağına inanmırdı, özü mobil telefon nömrəsini qadına verdi.

-Sən də öz telefon nömrəni mənə ver.

-Mənim telefonum yoxdur.

Əbili yan otağa keçdi. Birazdan əlində cib telefonu gəldi.

-Bunu sənə bağışlayıram.

-Sağ ol!

-Səninçün istədiyin paltarıda alaram.

Əbilinin arvadı yenə adəti üzrə atasıgilə getmişdi. Əbili bu adəti ona tərgidə bilmirdi.

İndi mənə atamgilə getməyi qadağan edəcəksən? Yaddan çıxartma ki, səni atam bu səviyyəyə çatdırıb.

Əbili arvadına heçnə deyə bilmirdi. Bu evdə maşında arvadının adına idi. İndi yağışlar başlamışdı. Hava yaxşı olanda qaynatasnıın yaşadığı ucqar kəndə getmək çətin idi, qaldı belə havaya yəqin xeyli atasıgildə qalacaq. O da qara eynəkli qadınla kefini çəkəcək.

Gəl divanda uzan, paltarını da soyun. Elə bil qara eynəkli qadın bunu gözləyirdi.

## VI

Asimanın bacısı qrup yoldaşı ilə nişanlanmışdı. Tibb Universitetini bitirəndən sonra ailə qurublar. Bacısının qaynatası Bakıda oğlu üçün üç otaqdan ibarət mənzil almışdı. Qız toyuda, oğlan toyuda Bakıda olmuşdu. Oğlan toyunda qaynata evin açarlarını oğluna təqdim etmişdi.

Bir müddət keçdi. Asimanın bacısı ona bildirdi:

-Qaqaş (Bacı həmişə onu belə çağırırdı), köç bizə.

Amma Asiman razı olmamışdı.

Sonra yeznəsi onun yanına gəldi. Yeznə ondan dörd - beş yaş böyük olsa da, bir - biriylə mehriban idilər.

Yenə Asiman razılaşmadı. Bu dəfə işə bacısının qaynatası və qaynanası qoşuldular. Asiman onların sözündən çıxa bilmədi.Razılığını verdi.

Bacısı əri ilə şəhərdən uzaq xəstəxananların birində işləyirdilər. Onlar səhər işə gedir, bir də axşam qayıdırdılar.

Bacısı Asimanın xoşuna gəldiyi yeməkləri bişirir, soyuducuda qoyurdu:

-Qaqaş qızdırıb yeyərsən.

Paltarlarını səliqə ilə yuyub ütüləyirdi.

-Sabah universitetə gedəndə bunu geyinərsən.

Asiman sonuncu kursda oxuyanda ona diplom işi vermişdilər. Mövzu Asimanın xoşuna gəlmişdi. O, diplom işini elə yazmaq istəyirdiki elmi rəhbəri olan kafedra müdiri narazı qalmasın. Diplom işi yazması üçün tələbələrə vaxt da vermişdilər.

Amma Asiman rayona getmək istəmirdi. Bunun da səbəbi vardı.

Onun doğulduğu rayonda Universitet fəaliyyət göstərirdi. Amma kitabxanası çox da zəngin deyildi.

Asiman hələ orta məktəbdə oxuduğu zaman şəhərdəki mərkəzi kitabxananın ən fəal üzvü idi. Onda belə bir hadisə olmuşdu. İki gündən sonra kitabı qaytaranda Mərkəzi kitabxananın müdiri ondan soruşmuşdu: Kitabı oxumusan?

- Bəli.

-Onda məzmununu danış.

Asiman nəinki, kitabın məzmununu danışmışdı. Hətta yazıçının tərcümeyi halını və başqa əsərləri haqqında da, məlumat vermişdi.

Asiman tətil zamanı rayona gedəndə də yenə də rayon mərkəzi kitabxananın üzvü olardı.

Mərkəzi kitabxanada elmi ədəbiyyatdan çəx bədii ədəbiyyat vardı.

Asiman Bakıda qaldı. Oxuduğu Bakı Dövlət Universitetinin zəngin elmi kitabxanası vardı. Hələ Mirzə Fətəli Axudzadə adına Milli kitabxana da vardı.

Ata - anası da Asimanın tətildə rayona gəlməməsində narazı deyildilər.

-Oğul, harda sənin üçün sərfdir, orada qal. Təki diplom işini yaxşı yaz.

... Diplom işini uğurla müdafiə edən Asimanın sevinci yerə göyə sığmırdı.

Tezliklə diplomu alıb işə girmək arzusunda Universitetin dəhlizində qrup nümayəndəsi ilə rastlaşdı.O da diplom işini əla qiymətlərlə müdafiə etmişdi.

-Səni təbrik edirəm Asiman.

-Səni də təbrik edirəm ay qrup nümaynədəsi.

-Axşam ANS - ə baxdın?

-Əlbəttə.

-Ermənilər snayperlə həyətdə oynayan uşağı öldürüblər. Vəhşilər...

Qrup nümayəndəsi Qarabağlı idi. Qaçqın həyatı yaşayırdı.

Qarabağ müharibəsi başlayanda qrup nümayəndəsinin atası özünə müdafiə dəstəsi yaratmışdı. 1990-1992-ci illərdə dəstə ermənilərə qarşı çoxlu mühim əməliyyatları uğurla yerinə yetirmişdi.

Qrup nümayəndəsi iki kəndi mərkəzlə birləşdirən korpünün partladılmasını unuda bilmirdi.

Ermənilər ağır silahları bu körpu vasitəsi ilə kəndə gətirdilər. Kəndləri mühasirəyə alır, çoxlu adamları öldürür və əsir alırdılar.

Yeganə çıxış yolu bu körpünü partlatmaq idi. Körpü atasının rəhbərliyi ilə (Atası yol mühəndisi idi ) uzun müddətdə tikilmişdi. Necə deyərlər öz əlləri ilə min bir zəhmətlə bir neçə aya tikilən körpünü partlatmaq atası üçün çox ağır idi. Özünün müdafiə dəstəsinin ov tüfəngilərindən başqa silahları yox idi. Bəzilərində heç ov tüfəngi də yox idi. Qarabağ müharibəsi başlamamışdan qabaq kənd sakinlərindən tüfəngləri almışdılar.

Soyuq idi , bərk soyuq idi. Gecədən xeyli keçirdi.Qrup nümayəndəsinin atasının komandir olduğu özünü müdafiə dəstəsi qadın və uşaqları, qocaları yük maşınına mindirib kənddən uzaqlaşdırdı. Növbə onun anasına , kiçik bacı və qardaşına çatdı. Atası onları bir - bir öpüb maşına mindirdi.

-Ata mən qalıram.

-Get oğul İnşallah hər şey yaxşı olar.

Maşın tez yola düşdü. Xeyli getmişdilər ki, partlayış səsi eşidildi.

Qeyri bərabər döyüşdə özünü müdafiə dəstəsinin üzvləri, qrup nümayəndəsinin atası şəhid oldular.

Ermənilər Asimangilin rayonunda vəhşilik törətmişdilər. 1918-ci ildə bir qrup erməni, ermənipərəs rus Sibkinovun rəhbərliyi ilə rayona gəlmiş şəhərin mərkəzindəki xan evində qərargah yaratmışdılar.

Neçə-neçə dinc əhalini vəhşicəsinə öldürmüşdülər. Yerli əhali tanınmış folklorşünas alim Teymurbəy Bayrambəyova məktub yazıb vermişdilər ki, aparsın Türkiyəyə. Qoy oradan kömək gəlsin. Teymurbəy yerlilərin məktubunu Türkiyəyə aparmışdı. Türkiyədən yerli sakinlərə kömək etmək üçün Əhməd Camal Paşa öz qoşunları ilə gəlmiş, şəhərdən 2-3 kilometr aralıdakı kənddə məskan salmışdır. Onun köməyi sayəsində yerli sakinlər ermənilərin vəhşiliyin-dən xilas olunmuşdular. 1922-ci ildə Əhməd Camal Paşa Gürcüstandan Türkiyəyə gedərkən iki erməni tərəfindən qətilə yetirilmişdir.

Asiman bu faktla onların rayonunda yaşayan, atasının dostu olan bir yazıçının "Mələk cildli nankorlar "əsəri vasitəsi ilə tanış olmuşdu. Yazıçı arxivlərdən Şaumiyanın anasına yazdığı üç məktubu tapmış, Avakyan haqqında çoxlu məlumat əldə etmişdi.

Sovet dövründə rayonda Qurgen adlı bir erməni yaşayırdı. Bakıda işləyirdi. O, hər ayın axırında rayonda yaşayan ermənilərdən pul yığıb Yerevana göndərirdi. Həmin yazıçının səyi nəticəsində aydın oldu ki, bu pullar Daşnak partiyasına göndərilir.

Yazıçı vaxtı ilə Bakıda ermənilərlə işləmişdi. Onların xarakterinə yaxşı bələd idi. Yazıçının böyük oğlu cəbhə bölgəsində xidmət etmişdi.

Haçandan - haçana qrup" nümayəndəsi dilləndi.

-Qrup oğlanları belə qərara gəlmişik könüllü əsgərliyə gedək. Bir başa cəbhə bölgəsinə.

Asimanın qrup oğlanlarının çoxu Qarabağlı qaçqınlar idilər.

-Sən də könüllü cəbhə bölgəsinə getmək istəyirsənsə bizim kimi ərizə yaz.

O, qoltuğunda gətirdiyi papkanı açdı.

Içində xeyli yazılı kağız çıxarıb Asimana göstərdi.

-Bizim ərizələrimizdir.

Asiman onların biri ilə tanış oldu.Ərizə çox təsirli yazılmışdı.

Qrup nümayəndəsi soruşdu:

-Bizə qoşulmaq istəyirsən ?

-Əlbəttə

-Onda sən də ərizə yaz.

Bir qrup məzunun könüllü cəbhə bölgəsinə getmək istəməsi xəbəri unuversitetə yayıldı. Rektor da bundan xəbər tutdu. O, məsləhət gördü ki, məzunlar unuversitet həyətindən təntənəli şəkildə cəbhə bölgələrinə yola salınmalıdır.

Yığıncaqda çoxlu adam vardı.

Rayondan Asimanın ataanası, atasının dostu yazıçı da gəlmişdilər.

Əvvəlcə rektor çıxış etdi. Sonra başqaları. Atasının dostu, yazıçı Qarabağ mövzusunda yazdığı əsərlərdən söz açdı , yenicə nəşr olunmuş "Mənim atasız dünyam" romanını könüllü cəbhəyə gedənlərə bağışladı. Yazıçı bu romanda da erməni vəşiliklərdən yazmışdı.

## VII

Asimanın xidmət etdiyi hərbi hissə erməni hərbi hissə ilə belə də çox məsafə yox idi. Erməni hərbi hissəsi yüksəklikdə , Asimanın xidmət etdiyi hissə isə aşağıda yerləşirdi. Bundan istifadə edən ermənilər tez - tez plemyotlarla , snayperlərlə yaşayış evlərinə, inzibati binalara atəş yağdırırdılar.

Cəbhə bölgəsindəki sakinlər əsasən əkinçilik və maldarlıqla məşğul olurdular. Ermənilərin tez - tez açdıqları atəş onlara öz işləri ilə məşğul olmasına imkan vermirdi. Atəş zamanı çoxlu mal - qara tələf olunmuşdu. Torpaqların çox hissəsi şumlanmamış qalmışdı. Evlərin damı, divarları güllələrdən deşik-deşik olmuşdu. Ermənilər həyətdə iş görən adamlara , oynayan uşaqlara da atəş açırıdılar.

... İlin sərt günləri idi. Hələ axşam qaranlığı çəkilməmişdi. Ulduzlar gözdən itməmişdi. Ermənilər yenə də bizim mövqeylərimizə atəş açırdılar. Düşmən tərəfindən kimsə bərkdən qışqırdı:

-Bu türk uşağı da vurun. O, böyüyəndə bizə qarşı vuruşacaq. Unutmayın ki, türklər bizim əbədi düşmənimizdirlər. Bu uşaqda düşməni-mizin uşağıdır. Yaşlılara da rəhm etməyin. İstər qadın olsun, istərsədə kişi hamısını öldürün.

Asiman erməni dilini bilmirdi. Yanındakı cəbhə yoldaşı əslən Qarabağlı idi. O, erməni dilini bilirdi.

-Nankorlar, burnunuzdan gəsin sizə etdiyimiz yaxşılıqlar...

**(ardı var)**